İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

# AZƏRBAYCAN İQTİSADİ İSLAHATLAR İCMALI



Yanvar - 2018



**“2017-Cİ İL TARİXDƏ DƏRİN, KÖKLÜ VƏ NƏTİCƏ VERƏN İQTİSADİ İSLAHATLAR İLİ KİMİ YADDA QALACAQDIR.”**

***İLHAM ƏLİYEV***

*Azərbaycan Respublikasının Prezidenti*

# MÜNDƏRİCƏT


GİRİŞ 6

BİZNES MÜHİTİNİN YAXŞILAŞDIRILMASI
1.1. Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi
1.2. "İpoteka və Kredit Zəmanət Fondu" ASC 6

SOSİAL MÜDAFİƏNİN GÜCLƏNDİRİLMƏSİ
2.1. İşsizlikdən sığorta haqqında Qanun
2.2. Sosial qayğı
2.3. Əmək Pensiyaları 15

İNSTİTUTLAŞMANIN TƏKMİLƏŞDİRİLMƏSİ
3.1. Energetika Məsələlərinin Tənzimləmə Agentliyi 26

YEKUN 29

***Ötən, 2017-ci ildə Azərbaycan Respublikasında yeni iqtisadi inkişaf modelinə keçidin təmin edilməsi davam etdirilmiş və cənab Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla aparılan kompleks iqtisadi islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatının dayanıqlı və inkluziv inkişafı bərpa edilmişdir.***

Ötən il ərzində yaradılmış Maliyyə Sabitliyi Şurası çərçivəsində həyata keçirilmiş əsaslı və sabitləşdirici tədbirlərin nəticəsində **Azərbaycan manatı sabitləşdirilmiş və ABŞ dollarına nisbətən 4% möhkəmləndirilmişdir.** Bununla yanaşı, ölkədə fəaliyyət göstərən makroiqtisadi institutların sıx koordinasiyalı fəaliyyəti iqtisadiyyatın tədiyyə balansının və iqtisadiyyatın çevik tarazlaşmasını təmin edərək ölkənin makroiqtisadi dayanıqlığını gücləndirmişdir.

2017-ci ilin ilk 11 ayında keçən ilin müvafiq dövrü ilə müqayisədə **xarici ticarət dövriyyəsi 12 faiz artaraq 21,8 milyard ABŞ dolları** təşkil edib, əmtəə ixracı isə 19 faiz artaraq 14 milyard ABŞ dollarını üstələyib. Məmnunedici hal kimi qeyri-neft əmtəə ixracının 24 faiz artmasını xüsusi qeyd etmək lazımdır. Bütövlükdə ticarət hesabında 6 milyard ABŞ dollarından çox müsbət saldo yaranmışdır. Burada qeyd etmək lazımdır ki, Azərbaycan MBD məkanında ixracın artımı ilə yanaşı, həm də idxalın əvəzlənməsini ən uğurla aparan ölkədir. Nəticədə, ilin əvvəlinə nisbətən dövlətin **beynəlxalq valyuta ehtiyatları 4,5 milyard ABŞ dolları və ya 13,3 faiz artmışdır**.

Nail olunmuş makroiqtisadi sabitlik ölkəmizin sürətli və uğurlu inkişafı üçün münbit şərait yaratmışdır və bu imkandan Azərbaycan xalqı yararlanmışdır. Belə ki, ÜDM-də yenidən artım tendensiyası nümayiş edilir və 2015-ci ildə cənab Prezident tərəfindən elan edilmiş yeni iqtisadi modelə keçid artıq öz nəticələri, xüsusilə **2,5%-lik qeyri neft sektorunun artımı** ilə sevindirir. Sənaye sahəsində qeyri-neft sektorumuz 3,6 faiz, kənd təsərrüfatı isə 4,1 faiz artmışdır. Xidmət sektorları, xüsusilə də turizm sahəsində nail olunmuş nəticələr qənaətbəxş kimi qiymətləndirilir. Ötən il ərzində **Azərbaycana ziyarətçilərin sayı 20% artaraq, 2,7 milyon nəfər təşkil etmişdir.** Bu, əlbəttə ki, tədiyyə balansının mövqeyinin gücləndirilməsinə də müsbət töhfə verib.

2017-ci ildə ölkənin iqtisadi potensialı, beynəlxalq nüfuzu və imicinin yüksəlməsi davam etmişdir. Belə ki, Dünya İqtisadi Forumu tərəfindən nəşr olunmuş "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan iki pillə irəliləyərək **137 ölkə arasında 35-ci yerdə** qərarlaşmışdır. Bu artımın residual xarakter daşımaması, eyni zamanda, Dünya Bankı tərəfindən hazırlanan “Doing Business 2018” hesabatında da öz əksini tapmışdır. Azərbaycan bu hesabat üzrə 8 pillə irəliləməklə yanaşı, **Avropa və Mərkəzi Asiya regionu üzrə ən islahatçı 3 ölkədən biri kimi müəyyənləşdirilmişdir.** Dünyanın iki ən nüfuzlu iqtisadi yönümlü hesabatında Azərbaycanın inamla irəliləməsi ölkəmizdə aparılan davamlı və sistemli islahatların uğuruna dünya ictimaiyyətinin verdiyi yüksək qiymətdir.

Yuxarıda sadalanan nailiyyətlər ölkədə **221 min yeni iş yerinin açılması və ölkə iqtisadiyyatına 14,6 milyard ABŞ dolları məbləğində sərmayə qoyuluşu** ilə transmissiya olunmuşdur. Müşahidə edilən investisiya yatırımının artımı həm yerli, həm də xarici investorlar üçün ölkənin cəlbediciliyini

> *"Azəri-Çıraq-Günəşli" kontraktının müddətinin uzadılmasını xüsusilə vurğulamaq lazımdır ki, xarici investorlar on milyardlarla dollar sərmayə yatıracaqlar və 3,6 milyard ABŞ dolları məbləğində bonus verəcək.*

Digər infrastruktur layihələrin icrası da qəbul edilmiş plana uyğun olaraq həyata keçirilir. Cənub Qaz Dəhlizinin icrası artıq yekunlaşmışdır, TAP layihəsinin icrasının isə 60%-i təmin edilmişdir. Ölkənin infrastrukturu yalnız neft sahəsində aparılmır, eləcə də qeyri neft sahəsində uğura imza atmış layihələrdə Azərbaycan öz üzərinə düşən vəzifələri yerinə yetirmişdir. Belə ki, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilmiş və Şimal-Cənub nəqliyyat dəhlizi layihəsinin icrası istiqamətində önəmli tədbirlər həyata keçirilmişdir. Eləcə də, 2017-ci ildən etibarən elektroenergetika ixracatına başlanılmışdır.

Sosial infrastrukturun təkmilləşdirilməsi və sosial müdafiənin gücləndirilməsi istiqamətində bir sıra uğurlara nail olunmuşdur. Belə ki, sosial infrastruktur layihələri çərçivəsində əhaliyə göstərilən sosial qayğı və dəstəklə bağlı olaraq yüzlərlə yeni kənd yollarının salınması, bir çox şəhərlərdə içməli su probleminin həll olunması, ölkənin əksər hissəsinin qazlaşdırılması, yeni onlarla məktəblərin tikilməsi, həmçinin işğaldan yeni azad edilmiş Cocuq Mərcanlı kəndi və Şıxarx qəsəbəsində yeni yaşayış qəsəbələrinin salınması tədbirləri həyata keçirilmişdir. Eləcə də, ünvanlı dövlət sosial yardımı alan ailələrin sayı xeyli artmış, işsizliyin aşağı səviyyədə olmasını təmin etmək üçün özünəməşğulluq proqramları genişləndirilmiş və əhəmiyyətli sayda yeni iş yerləri açılmışdır.

"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanına uyğun olaraq, ölkədə biznes mühiti, institutsional və sosial islahat tədbirlərinin tətbiqi, eləcə də həyata keçirilmiş digər işlər nəticəsində möhtərəm beynəlxalq iqtisadi institutlar tərəfindən Azərbaycan iqtisadiyyatı ilə bağlı verilmiş proqnozlar artırılmışdır.

> *2018-ci ildə Beynəlxalq Valyuta Fondu Azərbaycanın qeyri neft iqtisadiyyatının 4%-lik artımına nail olacağını proqnozlaşdırır.*

Ölkənin ümumi iqtisadiyyatının orta-müddətli artım tempi isə 3,5-4% arasında təşkil edəcəyi gözlənilir. Həmçinin, Dünya Bankının sonuncu hesabatında Azərbaycan iqtisadiyyatının daha sürətli artım tempi proqnozlaşdırılır.

# GİRİŞ

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliyinin, inklüzivliyinin yüksəldilməsi, sosial rifahın artırılması, maliyyə sisteminin davamlı və dinamik templi inkişafının təmin edilməsi, dünya iqtisadiyyatında mövqeyinin daha da gücləndirilməsini reallaşdırmaq məqsədi ilə əsaslı iqtisadi islahatlar həyata keçirilmişdir. Belə ki, qeyd olunan iqtisadi islahatlar təşviqedici, sosial və institutsional islahatlara ayrılır.

# 1. BİZNES MÜHİTİNİN YAXŞILAŞDIRILMASI

Azərbaycan Respublikası Prezidenti tərəfindən qeyri-neft sektorunun davamlı və artan inkişafının təmin olunması, sahibkarlığın inkişafı üzrə şaxələndirilmiş, sabit və rəqabətədavamlı milli iqtisadi sistemin formalaşdırılması, maliyyə dayanıqlığının gücləndirilməsi və biznes mühitinin inkişafı məqsədi ilə son illərdə kompleks iqtisadi islahatlar həyata keçirilmişdir. Belə tədbirlərdən biri kimi 2016-cı il 6 Dekabr tarixli Fərman ilə milli iqtisadiyyat perspektivi və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi təsdiq olunmuşdur

- *inklüziv inkişafın artırılması,*
- *maliyyə xidmətlərinin əlçatanlığının təmin olunması,*
- *kiçik və orta sahibkarların maliyyə xidmətlərindən istifadə imkanlarının təkmilləşdirilməsi*

hədəflənmişdir.

KOS fəaliyyəti sahəsində əsaslı iqtisadi islahatların həyata keçirilməsinin lazimiliyini vurğulayan bir sıra amillər qeyd oluna bilər. Azərbaycanda bankların KOS subyektlərinin kredit müraciətlərinin nəzərə alınması göstəricisinin aşağı səviyyədə olması, KOS sahəsində iqtisadi inkişafın artırılması zəruriyyətinin mövcudluğu, KOS fəaliyyətinin riskli bir sahə olması, bu sahənin dəyərləndirilməsi üçün yetəri məlumat bazasının olmaması və kredit faiz dərəcələrinin yüksək olması ilə əlaqədar KOS subyektlərinin kredit resurslarını əldə etməsinin çətinləşməsi müəyyənləşdirilmiş amillərdəndir. Həmçinin, KOS subyektlərinin müxtəlif məlumat mənbələrinə çıxış imkanlarının artırılması, biznes və mövcud qanunvericiliklə bağlı biliklərinin təkmilləşdirilməsi, sözügedən sektorla əlaqədar məlumatlılığın təmin olunması və bu kimi mərkəzləşdirilmiş xidmətlərin göstərilməsi zəruriyyəti də qeyd olunmalıdır.

Bu məsələlərin həll olunması və nəzərdə tutulan prioritetlərin gerçəkləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidenti tərəfindən KOS fəaliyyət sahəsi ilə bağlı xüsusi qurumların, "İpoteka və Kredit Zəmanət Fondu" və "Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi", yaradılması üçün müvafiq fərmanlar imzalanmışdır.

## 1.1. KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFI AGENTLİYİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi barədə 2017-ci il 28 dekabr tarixli Fərman imzalamışdır. İqtisadiyyat Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusu ilə fəaliyyət göstərəcək bu agentlik Azərbaycanda iqtisadiyyatın diversifikasiyası və rəqabətqabiliyyətliliyinin artırılması, məşğulluğun təmin edilməsi, istehlak mallarına olan tələbatın yerli resurslar hesabına ödənilməsi və iqtisadi inkişafın təmin edilməsi baxımından kiçik və orta sahibkarlığın (bundan sonra – KOS) inkişafında xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasında **hazırda bir sıra dövlət orqanları KOS subyektlərinə öz səlahiyyətlərinə müvafiq olaraq bir sıra xidmətlər göstərirlər**. Lakin qeyd etmək lazımdır ki, beynəlxalq təcrübədə də müəyyən olunduğu kimi bu **xidmətlərin vahid mərkəzdən göstərilməsi daha məqsədə uyğundur.** Başqa sözlə, KOS subyektlərinin biznes məsləhət xidmətlərindən istifadə göstəricilərinin olduqca aşağı olması, ola biləcək biznes risklərindən, qanunvericilik və normativlərin müvafiq tələblərindən, sektordakı ümumi vəziyyətdən məlumatsız olmaları, eləcə də biznes məsləhət xidmətlərinə çıxışın mürəkkəbliyi nəticəsində onların sabitliyi və rəqabət qabiliyyətinin sarsılması əsas amillər kimi qeyd olunmalıdır.

KOS-un İnkişafı Agentliyi kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi məqsədi ilə ölkədə

> *ölkədə kiçik və orta sahibkarlığın inkişafını dəstəkləyəcək, KOS subyektlərinə bir sıra xidmətlər göstərəcək, dövlət orqanlarının bu sahədə xidmətlərini əlaqələndirəcək və tənzimlənməni həyata keçirəcəkdir.*

Belə ki, inkişaf etmiş ölkələrdə KOS-un ÜDM və məşğulluqdakı xüsusi çəkisinə nəzər saldıqda belə qənaətə gəlmək olur ki, Azərbaycanda da davamlı iqtisadi inkişafın təmin

edilməsində KOS-un əsas hərəkətverici amilə çevrilməsi qarşıda duran əsas çağırışlardan biridir.

KOS subyektlərinin inkişafına birbaşa təsir edəcək islahatların ünvanlılığının təmin olunması üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 iyun tarixli 215 nömrəli "İri, orta və kiçik sahibkar meyarları"nın təsdiq edilməsi haqqında" qərarı ilə KOS subyektlərinin meyarları aşağıdakı cədvəllə müəyyənləşdirilmişdir.

**İRİ, ORTA VƏ KİÇİK SAHİBKAR MEYARLARI**

| Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyası | İşçilərin orta siyahı sayı | İllik gəliri |
|---|---|---|
| Kiçik sahibkar | 25 nəfərədək | 200 min manatadək |
| Orta sahibkarİri sahibkar | 25 nəfərdən 125 nəfərədək | 200 min manatdan 1250 min manatadək |
| İri sahibkar | 125 nəfər və ondan yuxarı | 1250 min manat və ondan yuxarı |

Dünyanın inkişaf etmiş ölkələrinin əksəriyyətində KOS subyektləri iqtisadi artımın və məşğulluğun təmin edilməsində aparıcı mövqeyə malikdir. Dünya Bankının məlumatlarına əsasən, inkişaf etmiş ölkələrdə KOS-un ÜDM və məşğulluqdakı payı müvafiq olaraq 50 və 60 faizdən yuxarıdır.

Belə ki, inkişaf etməkdə olan ölkələr də iqtisadi dayanıqlılığın gücləndirilməsi, rəqabətqabiliyyətliliyin artırılması və iqtisadi aktivliyin təmin edilməsi üçün KOS-un inkişafı istiqamətində sistemli tədbirlər həyata keçirir. Nəticədə, rəqabətli bazar münasibətləri formalaşır ki, bu da bazarda tələb-təklif tarazlığının yaranmasına, qiymətlərin sabitləşməsinə, istehsal olunan mal və xidmətlərin rəqabətqabiliyyətliliyinin yüksəlməsinə, iqtisadi tənzimləmə alətlərinin effektiv tətbiqinə, iqtisadiyyatın dayanıqlılığına və xarici təsirlərin çevik absorbsiyasına şərait yaradır. Məhz bu səbəblərdən hazırkı qlobal kontekstdə həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr KOS vasitəsilə iqtisadiyyatlarının böhranlara çevik uyğunlaşmasına nail olmağa çalışır.

### 1.1.1 KOS agentliyinin vəzifə öhdəlikləri

Agentliyin idarə heyəti aidiyyəti dövlət orqanları ilə birlikdə "Kiçik və Orta Sahibkarlıq Səviyyəsində İstehlak Malları İstehsalı"na dair Strateji Yol Xəritəsinin icrasına nəzarəti həyata keçirəcəkdir. Bunun üçün proqram, təşəbbüslər, əsas icra göstəriciləri yaradılacaq, işçi qruplar üçün prioritetlər müəyyən ediləcək, həmin işçi qrupların maliyyələşdirilməsi mexanizmi işlənib hazırlanacaq və zəruri resursların ayrılması məsələsinə baxılacaqdır. Agentlik nazirliklərə

təkliflər hazırlayacaq və icra şəffaflığını təmin edəcək, eləcə də işçi qruplar və təminat bölmələri arasında əlaqələndirməni təşkil edəcəkdir.

KOS subyektlərinin müxtəlif biznes xidmətləri və sahibkarlıq fəaliyyəti ilə bağlı məlumatlara çıxış imkanlarının artırılması məqsədilə KOS agentliyinin nəzdində KOS evinin yaradılması nəzərdən keçiriləcəkdir. KOS evində sahibkarlara müxtəlif biznes xidmətləri göstəriləcək və onlar üçün tələb olunan məlumatlara çıxış imkanları yaradılacaqdır. Başqa sözlə, KOS subyektləri üçün biznes planlarının hazırlanması, bazar araşdırmalarının aparılması, hüquqi məsləhətlərin verilməsi, mühasibatlıq və bu kimi digər xidmətlərin göstərilməsi təmin olunacaq. KOS evində "bir pəncərə" prinsipi əsasında sahibkarlara xidmətlər göstərən mərkəz, məşğulluq xidmətləri, təlim mərkəzi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) nümayəndəliyi, beynəlxalq qurumların şöbələri, Azərbaycan İnvestisiya Şirkətinin (AİŞ) nümayəndəliyi, kredit zəmanət fondu və digər əlaqəli qurumların yerləşməsi mümkün hesab oluna bilər. Agentlikdə ərizələr, təlimlər və informasiya texnologiyalarının imkanları da daxil olmaqla, bütün xidmətlərin göstərilməsi üçün onlayn portal fəaliyyət göstərəcəkdir.

### 1.1.2 Gözlənilən nəticə və nəticə indikatorları

Yaradılması nəzərdə tutulan KOS agentliyi Azərbaycanda KOS fəaliyyətinin inkişafında uğur qazanmaq üçün aparıcı qüvvə rolunu oynayacaqdır. Yeni agentliyin məqsədi, Azərbaycanda fəaliyyət göstərən KOS subyektlərinin sayını, eləcə də bu sahibkarlıq subyektlərinin ÜDM-də payını 2020-ci ilədək qoyulan hədəflərə uyğun artırmaqdan ibarət olacaqdır.

*Sözügedən Strateji Yol Xəritəsində nəzərdə tutulan KOS agentliyinin yaradılması ilə Azərbaycanın real ÜDM-nin 2020-ci ildə 140 milyon manat birbaşa, 60 milyon manat dolayı olmaqla, ümumilikdə, 200 milyon artacağı proqnozlaşdırılmışdır. Strateji Yol Xəritəsində aparılan hesablamalara əsasən, 2020-ci ildə KOS-un ÜDM-də payının 15 faizə, məşğulluqda 20 faizə və qeyri-neft ixracındakı payının isə 10 faizə çatdırılacağı gözlənilə bilər. Prioritet çərçivəsində 240 yeni iş yerinin yaradılacağı planlaşdırılır.*

Kiçik və orta sahibkarlığının inkişafı sahəsində KOS agentliyinin yaradılması birinci təşəbbüs deyil, bu sahədə bir sıra istiqamətlər üzrə də işlər aparılmaqdadır. Belə ki, KOS subyektlərinin müxtəlif xarakterli məlumat mənbələrinə çıxış imkanlarını artırmaq məqsədilə vahid onlayn məlumat portalı yaradılması planlaşdırılır. Bu portalda KOS subyektləri üçün vacib olan müxtəlif məlumatlar yerləşdiriləcək və beləliklə, sahibkarlar ölkədəki qanunvericilik bazasına, biznes biliklərinə, mütəxəssis bankına və

digər məlumatlara çıxış imkanı əldə edəcəklər. Eyni zamanda, bu portalda distant təhsil proqramları, uğurlu biznes nümayəndələri ilə müsahibələr və digər faydalı məlumatlar öz əksini tapacaqdır.

Qeyd edilənlərlə yanaşı, Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ABAD" (Ailə Biznesinə Asan Dəstək) publik hüquqi şəxs Prezident İlham Əliyevin 2016-cı il 23 sentyabr tarixli Fərmanı ilə yaradılmışdır. Bu tədbir ilə ölkənin sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakına, kiçik və orta sahibkarlığın inkişafı, əhalinin məşğulluq səviyyəsinin artırılması və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına əlavə dəstək verilir.

Həmçinin də, kiçik və orta sahibkarlığının inkişaf etdirilməsi və maliyyə resurslarına çıxış imkanlarının artırılması məqsədilə İpoteka və Kredit Zəmanət Fondu yaradılmışdır. Bu fond vasitəsilə Azərbaycanda qeyri neft sahəsində fəaliyyət göstərən təsərrüfat subyektlərinə manatla verilən kreditlərə zəmanət, həm də subsidiya veriləcək.

## 1.2. "İPOTEKA VƏ KREDİT ZƏMANƏT FONDU" AÇİQ SƏHMDAR CƏMİYYƏTİ

"Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra – Fond) "Azərbaycan Respublikasında sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə dövlət dəstəyi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli Fərmanına əsasən yaradılmışdır.

"Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin və "Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" Açıq Səhmdar Cəmiyyətinin birləşmə formasında yenidən təşkili yolu ilə "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu" (bundan sonra – Fond) " Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli Fərmanına əsasən formalaşdırılmışdır. Beynəlxalq təcrübədən yararlanaraq həyata keçirilən bu tədbirlər iqtisadiyyatın inkişafı istiqamətində mühüm əhəmiyyət kəsb edir.

Belə ki, sahibkarlar tərəfindən manatla alınan kreditlərə zəmanət verilməsi və hesablanmış faizlərə görə subsidiya verilməsi qaydaları təsdiq edilmişdir. Bu stimullaşdırıcı mexanizmdən istifadə etmək üçün borc alan kredit sifarişi ilə müvəkkil banka müraciət edir. Müvəkkil bank həm uyğunluq, həm də kredit təhlili aparır və bunların əsasında müvafiq qərar qəbul edir. Müvəkkil bankın qərarı müsbət olduqda, bank müvafiq qayda ilə müəyyən edilmiş sənədləri təqdim etməklə zəmanət üçün Fonda müraciət edir. İki yüz manat və ondan aşağı məbləğdə olan zəmanətin verilməsi üzrə 3 iş günü, iki yüz manatdan yuxarı olan məbləğdə isə10 iş günü ərzində qərar qəbul edir.

## ZƏMANƏT VƏ SUBSİDİYA ALINMA PROSESİ




Burada qeyd etmək yerinə düşər ki, zəmanət almaq üçün Fond və müvəkkil banklar arasında çərçivə müqaviləsi bağlanır. Zəmanət qeyri-neft sektorunda fəaliyyət göstərən və Azərbaycan Respublikası ərazisində sahibkarlıq fəaliyyətinin maliyyələşdirilməsi məqsədilə müvəkkil banka kredit sifarişi ilə müraciət edən sahibkarın öhdəlikləri üzrə verilir. Bundan əlavə, Zəmanət veriləcək kreditlər üzrə əsas tələblərdən biri kimi bir borcalanın və ya bir-biri ilə əlaqədar borcalanlar qrupunun bütün müvəkkil banklar üzrə zəmanət verilən cəmi kreditlərinin məbləğinin 3 000 000 (üç milyon) manatdan çox olmamasını qeyd etmək olar.



Qeyd etmək vacibdir ki, zəmanət kreditin yalnız əsas borcu üzrə verilir və bir kredit üzrə zəmanətin kreditə nisbəti 15%-dən az və 75%-dən çox olmamalıdır. Həmçinin, bir borc alan üzrə bir zəmanətin aşağı həddi 15 000 (on beş min) manat, bütün zəmanətlərin yuxarı həddi isə 500 000 (beş yüz min) manat məbləğində olmalıdır.



Yeni fəaliyyətə başlayan sahibkarların kreditləri üzrə zəmanət maliyyələşdirilməli olan layihənin ümumi dəyərinin minimum 25%-i həcmində vəsaiti borcalanın müvəkkil bankdakı hesaba mədaxil etməsi və ya borcalanın layihə üzrə xərclədiyi vəsaitlərin layihənin ümumi məbləğinin minimum 25%-ni təşkil etməsi (ödəniş sənədləri ilə təsdiq olunduqda) halında verilir. Eyni zamanda, zəmanət verilmiş kredit vəsaitlərindən borcalan yalnız təyinatına uyğun və nağdsız qaydada istifadə etməlidir.

Bundan əlavə, Fond sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya da verir. Fond borcalana faiz subsidiyasının və müvafiq olaraq zəmanətin verilməsi haqqında qərarını müvəkkil banka eyni anda açıqlayır.

Sözügedən faiz subsidiyasi illik faiz dərəcəsi 20%-dən çox olmayan kreditlər üçün verilir və faiz subsidiyası kreditin faiz dərəcəsinin azı 6 faiz bəndinin borcalanın ödəməsi şərti ilə aşağıdakı hədlərdə verilir:




Onu da bildirmək istərdik ki, müddəti üç ildən artıq olan kreditlər üçün faiz subsidiyası yalnız üç il müddətinə verilir. Burada qeyd etmək lazımdır ki, subsidiyanı Fond dövlət büdcəsinin vəsaiti hesabına ödəyir.

Fond effektiv və səmərəli idarə edilməsinin təmin olunması məqsədi ilə bir sıra risklərin idarəedilməsi alətlərindən istifadə ilə yanaşı, sahibkarlıq subyektlərində monitorinq aparılması üçün monitorinq sistemi formalaşdırır. Monitorinqin başlanmasından ən azı 3 (üç) iş günü

əvvəl sahibkarlıq subyekti və müvəkkil banka monitorinq barədə məlumat verilir.

Fondun yaradılması real sektorla maliyyə sektoru arasındakı iqtisadi tarazlığın bərpa olunması, maliyyə risklərinin bölünməsi, bankların dayanıqlığının və real sektora maliyyə axınının gücləndirilməsi, əks-dollarlaşmanın stimullaşdırılması və Azərbaycanda rəqəmsal ödənişlərin genişləndirilməsinə nail olmaq üçün mühüm bir addımdır. Bu maliyyə inklüzivliyinin artırılması, sahibkarların maliyyə mənbələrinə çıxış imkanlarının genişləndirilməsi və maliyyə xidmətləri ilə təminatının yaxşılaşdırılmasına xidmət edəcək. Ölkədə maliyyə inklüzivliyinin artımına nail olunması iqtisadi fəaliyyətin dəstəklənməsinə, sahibkarlığın inkişafına, məşğulluğun yaxşılaşdırılmasına da əlavə dəstək verəcək.

Bu tədbir Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında "Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə öz əksini tapmış islahatlardan biridir. Belə ki, ölkədə aparılan kompleks islahatların növbəti mühüm tədbiri reallaşıb və ölkənin iqtisadi inkişafına təkan verərək qeyri-neft sektorunun inkişafı və yeni iş yerlərinin yaradılması üçün münbit şərait yaradılmışdır.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən iqtisadi sahədə KOS subyektlərinin sayının artırılması, məşğulluğun inkişaf etdirilməsi, qeyri-neft sektorunun ixracının yüksəldilməsi və ÜDM-də onların rolunun artırılması məqsədi ilə zəruri tədbirlər həyata keçirilir. Beləliklə, KOS fəaliyyət sahəsində KOS subyektlərinin maliyyə bazarlarına girişi ilə bağlı maneələrin aradan qaldırılması, KOS-ların kreditlərinin sığortalanması və banklar üçün ola biləcək risklərə təminat verilməsi, risklərin bölüşdürülməsini təmin edən kreditləşmə sisteminin formalaşdırılması və KOS subyektlərinin maliyyə savadlığının və onlar üçün müxtəlif xarakterli informasiya resurslarının əlçatanlığının artırılması üçün tədbirlər həyata keçirilir.

# 2. SOSİAL İSLAHATLAR

Prezident İlham Əliyevin sədrliyi ilə sosial yönümlü iqtisadi inkişafın təmin olunmasına böyük önəm verilir və bu istiqamətdə son illərdə ölkədə bir sıra iqtisadi islahatlar həyata keçirilmiş və əhəmiyyətli irəliləyişlərə nail olunmuşdur. Sosial müdafiə dedikdə dövlət və özəl qurumlar tərəfindən əhali qruplarını davamlı gəlir mənbəyi ilə təmin etmək, məşğulluqla bağlı riskləri aradan qaldırmaq, iqtisadi və sosial təhlükələrin və zəifliklərin qarşısını almaq, onların müdafiəsini həyata keçirmək kimi funksiyalar nəzərdə tutulur.

Beynəlxalq təcrübədə sosial müdafiənin əsas fəaliyyət obyektlərinə görə geniş miqyasda fərqli yanaşma tərzləri ilə müxtəlif funksiya və formaları təsnif olunur. Belə ki, əhalinin aşağı təbəqələrinin müdafiəsi, kasıbçılığın azaldılması, insan kapitalının formalaşdırılması, həyat tərzinin inkişaf etdirilməsi, sosial və iqtisadi bərabərlik və stabilliyin gücləndirilməsi və inklüziv inkişafın təmin olunması kimi funksiyaları əhatə edən kriteriyalar aid oluna bilər.

Azərbaycanda sosial müdafiə mexanizminin təkmilləşdirilməsi və gücləndirilməsi məqsədi ilə həyata keçirilən iqtisadi islahatlar nəticəsində bu sahədə bir sıra uğurlara nail olunub və 2017-ci il çərçivəsində reallaşdırılan tədbirlər isə önəmli əhəmiyyət kəsb edir. Bu kimi tədbirlər arasında İşsizlikdən Sığorta haqqında qanunun əhəmiyyəti xüsusilə qeyd olunmalıdır.

## 2.1. İŞSİZLİKDƏN SIĞORTA HAQQINDA QANUN

Əmək bazarının təkmilləşdirilməsi üçün reallaşdırılan tədbirlərin əsas məqsədləri kimi işsiz, lakin əmək qabiliyyətli əhali qruplarını iş ilə təmin etmək və onların hüquqlarının müdafiəsi nəzərdə tutulur. Bu istiqamətdə aparılan əməliyyatlar aktiv və passiv əməliyyatlardan ibarətdir. Aktiv əməliyyatlara əmək fəaliyyəti ilə məşğul olmayan insanların iş yeri ilə təmin olunması üçün əlavə iş və təcrübə yerlərinin yaradılması, kiçik və orta ölçülü iş yerlərinin sayının artırılması və fəaliyyətinin təkmilləşdirilməsi üzrə normativlərin qəbulu və tətbiqi aiddir. Passiv əməliyyatlara isə, xəstəlik və analıq məzuniyyəti gəliri, təhlükəsiz iş şəraitini və ən aşağı əmək haqqını müəyyən edən qanunvericilik normativlərinin təkmilləşdirilməsi və

tətbiqinin həyata keçirilməsi daxildir.

Beləliklə, əmək bazarında aktiv və passiv əməliyyatların genişləndirilmiş miqyasda tətbiq edilməsi, əmək qabiliyyətli əhali qruplarını, xüsusilə də, gənc təbəqəni lazimi təhsil və peşə bilikləri, eləcə də, iş ilə təmin olunması kimi amillərin həlli ön planda olmalıdır. Bununla da, əhalinin məşğulluq səviyyəsinin artırılması, əmək qabiliyyətli vətəndaşların işsizlik səbəbindən itirdiyi gəlirlərinin tam və ya qismən kompensasiya olunması kimi məsələlərin reallaşdırılması üçün şərait yaranacaqdır.

Bu məqsəd ilə, Azərbaycan Respublikası Prezidenti tərəfindən 30 İyun 2017-ci il tarixində "İşsizlikdən sığorta haqqında" Qanunun tətbiqi barədə 5 Avqust 2017-ci tarixli Fərmanı imzalanmışdır. Qanun 2018-ci il Yanvar ayının 1-dən etibarən qüvvəyə minəcəkdir.

Qanun əmək bazarında riskin ötürülməsi münasibətlərinin və yeni maliyyələşdirmə sistemlərinin formalaşdırılmasının əsasının qoyulması, sığortaolunanların (işçilərin) itirilmiş əməkhaqqılarının kompensasiya olunması və işsizlik səviyyəsinin aşağı salınması və bu halın aradan qaldırılması üçün önləyici tədbirlərin görülməsi ilə ölkədə sosial müdafiə mexanizminin təkmilləşdirilməsini təmin edəcəkdir.

Qarşıya qoyulan bu kimi məqsədlər üzrə isə Qanunda müəyyənləşdirilən əsas prinsiplər işsizlikdən sığortanın məcburiliyi, sığortanın davamlılığına dövlət təminatının verilməsi, sığorta subyektlərinin hüquqlarının bərabərliyinin reallaşdırılmasıdır. Həmçinin, bu kimi prinsiplərin davamı olaraq sığorta hallarına səbəb olabiləcək halların qarşısının alınması və baş verməməyi üçün müvafiq tədbirlərin həyata keçirilməsi, işsizlikdən sığortanın idarə edilməsində ictimai təşkilatların iştirakının təminatı kimi prioritetləri də qeyd etmək lazımdır. Belə ki, qanun işsiz vətəndaşların əmək qabiliyyətinin, bilik və bacarıqlarının artırılması ilə yenidən onların iş ilə təmin olunmasına şərait yaradılmasını nəzərdə tutur.

İşsizlikdən sığorta ödənişini almaq hüququ olan şəxslərə dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi və ya işçilərin sayı və ştatlarının ixtisar edilməsi nəticəsində iş yerlərini itirmiş vətəndaşlar aid olunur. Sosial vəzifə tutan şəxslərə isə bu qanun şamil olunmur.

Qanunda nəzərdə tutulduğu kimi, sığortaolunan (işçi) və sığortaedən (işəgötürən) tərəfindən müvafiq icra hakimiyyəti orqanına ödənilməli olan pul məbləği (sığorta haqqı) sığorta tarifi əsasında hesablanır. Bunun üçün əməkhaqqı fonduna və sığortaolunanın əməkhaqqına tətbiq olunan faiz dərəcəsinin (sığorta tarifinin) müəyyənləşdirilməsində beynəlxalq təcrübədən yararlanılıb və ən aşağı faiz dərəcəsi təyin olunub.

## İŞSİZLİKDƏN SIĞORTA VƏSAİTLƏRİNİN MƏNBƏLƏRİ




İşsizlikdən sığorta ödənişinin növləri isə əsas sığorta ödənişi, sığorta ödənişinə əlavə və minimum sığorta ödənişindən ibarətdir. Əsas sığorta ödənişi üzrə işsizliyə görə aylıq sığorta ödənişi işsizliyin başlanmasından əvvəlki 24 təqvim ayı ərzində 12 aydan çox və ən az 3 il sığorta stajı olan əmək qabiliyyətli şəxslərə şamil olunur. Aylıq sığorta ödənişinin hesablanması qaydası orta aylıq əməkhaqqı məbləğinə müvafiq faiz dərəcələrinin tətbiq olunması vasitəsi ilə həyata keçirilir. Həmçinin qeyd olunmalıdır ki, işsizliyin başlanmasından əvvəlki 24 təqvim ayı ərzində 12 aydan az və ən azı 3 il sığorta stajı olan vətəndaşlara isə müəyyənləşdirilmiş minimum sığorta ödənişi verilir.

Sığorta ödənişinə əlavə himayəsində 18 yaşa çatmamış uşaq olan, buna 23 yaşından çox olmamaqla əyani təhsil alan tələbələr və şagirdlər də aid olunmaqla, vətəndaşlara şamil olunur və əsas sığorta ödənişinə hesablanmış müvafiq əlavə əsas sığorta ödənişi ilə birlikdə verilir.

Minimum sığorta ödənişi məbləği icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilərək, aylıq minimum əməkhaqqına bərabər şəkildə təyin olunur.

## ƏSAS SIĞORTA ÖDƏNİŞİ VƏ SIĞORTA ÖDƏNİŞİNƏ ƏLAVƏ




Sığorta ödənişi almaq üçün vətəndaş müvafiq icra hakimiyyəti orqanına müraciət edir və ona ilk dəfə sığorta müraciəti zamanı işsizlik müddətinin davamına uyğun olaraq müəyyən faiz dərəcələri üzrə minimum sığorta ödənişinin məbləğindən az olmayaraq sığorta ödənişi məbləği təyin olunur.

## SIĞORTA ÖDƏNİŞİNİN ÖDƏNİLMƏSİ-
## İLK MÜRACİƏT ZAMANI




## SIĞORTA ÖDƏNİŞİNİN ÖDƏNİLMƏSİ-
## TƏKRAR MÜRACİƏT ZAMANI



Eləcə də qeyd olunmalıdır ki, bir sıra hallarda sığorta ödənişinin verilməsi dayandırıla bilər. Belə ki, sığorta ödənişi alan vətəndaş iş ilə təmin olunduqda və ya müvafiq icra hakimiyyəti orqanına məlumat vermədən işə düzəldikdə, fərdi məşğulluq proqramını üzrlü səbəblərə əsaslanmadan icra etmədikdə, təklif olunan peşə hazırlığı və ya əlavə təhsildən imtina etdikdə, ali və ya orta ixtisas təhsil müəssisəsinə qəbul olunduqda, hərbi xidmətə çağırıldıqda və bu kimi başqa hallarda sığorta ödənişi ləğv oluna bilər.

Sosial müdafiənin təmin olunması məqsədi ilə qeyd olunan prinsip və funksiyaların həyata keçirilməsi istiqamətində işsizlikdən sığorta vəsaitləri hesabına bir sıra əməliyyatların maliyyələşdirilməsi nəzərdə tutulmuşdur. Belə ki, "Məşğulluq haqqında" qanuna əsasən işsizlik sığorta haqqını almaq hüququ olan vətəndaşlar üçün nəzərdə tutulan və passiv əmək bazarından aktiv əmək bazarına keçidi təmin edən bu tədbirlər təqdim olunur:

## SIĞORTA VƏSAİTLƏRİ HESABINA MALİYYƏLƏŞDİRİLƏN AKTİV TƏDBİRLƏR



Sığorta ödənişi alan şəxs qanuna müvafiq olaraq ayda bir dəfə müvafiq icra hakimiyyəti orqanına fərdi məşğulluq proqramının icrası barədə şəxsən hesabat verməlidir ki, bu zaman həmin orqan vətəndaşı münasib iş, peşə hazırlığı, əlavə təhsil, haqqı ödənilən ictimai işlər barədə məlumatlandıra və ona təkliflər verə bilər. Həmçinin, müvafiq icra hakimiyyəti orqanı fərdi məşğulluq proqramının yerinə yetirilməsi qaydası, sığorta ödənişi alan şəxslərin işə düzəlmək üçün işəgötürənlərə müraciəti və aktiv tədbirlərdə iştirakı kimi məlumatların göstərildiyi hesabatın formasını müəyyənləşdirir.

Həmçinin qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Prezidenti tərəfindən "İşsizlikdən sığorta'' fondunun "2018-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 Dekabr tarixli 905-VQ nömrəli Qanunun tətbiqi barədə fərman qəbul olunmuşdur.

Bundan əlavə, 12 Sentyabr 2017-ci il tarixində sosial sığorta ehtiyatlarından istifadə qaydası və sığortaolunanlar üzrə əlavə vəsaitlərin ödənilməsi ilə bağlı müvafiq Fərman verilmişdir.

Eləcə də, əmək bazarının təkmilləşdirilməsi, əmək pensiyaları sisteminin inkişaf etdirilməsi və bu kimi sosial müdafiə ilə əlaqədar prioritetlərin əhatə olunması məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanmış digər fərman və sərəncamlar da təqdim olunmuşdur.

## 2.2. SOSİAL QAYĞI

### 2.2.1 Sosial qayğı və dəstək

Sosial qayğı və dəstək isə əhalinin sağlamlıq səviyyəsinin yüksəldilməsi, tibbi xidmətlərin gücləndirilməsi, bütün əhali qrupları üzrə təmin olunması, tibbi sığorta sisteminin təkmilləşdirilməsi, sağlam qida resursları ilə təchiz olunması, savadlılığın artırılması və kommunal xidmətlərin inkişafı kimi prioritetləri özündə əks etdirir. Bu kimi prinsiplərin təmin olunması məqsədi ilə isə, Azərbaycan Respublikası ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş şəxslərə, İkinci Dünya müharibəsi iştirakçılarına və onların birinci dərəcəli qohumlarına sosial qayğı və dəstək göstərilmişdir. Belə ki, bu şəxslərin müvafiq olaraq yüksək texnologiyalı reabilitasiya vasitələri ilə təmin olunması, eləcədə onlara birdəfəlik maddi yardım göstərilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamları verilmişdir.

### 2.2.2 İcbari Tibbi Sığorta Agentliyi

Səhiyyə sahəsində həyata keçirilən əsaslı iqtisadi islahatlar əhalinin sağlamlığının müdafiəsi məqsədi ilə bir sıra mühüm dövlət qurumlarının formalaşdırılması,

mövcud qurumların fəaliyyətinin təkmilləşdirilməsi, göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi və müasir standartlara çatdırılması, tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, maliyyələşdirmə mexanizminin inkişaf etdirilməsi kimi nailiyyətlərə yol açmışdır. "Səhiyyənin maliyyələşdirilməsi sisteminin islahatı və İcbari tibbi sığortanın tətbiqi Konsepsiyası" ilə əlaqədar müvafiq Sərəncamın imzalanması bu istiqamətdə atılan mühüm addımlardan biridir. Belə ki, səhiyyə sistemində maliyyələşdirilmə prinsipləri üzrə əsaslı iqtisadi islahatların həyata keçirilməsi, mərkəzləşdirilmiş idarəetmə sisteminin yaradılması, tibbi xidmətlərin keyfiyyətinin daha da inkişaf etdirilməsi, icbari tibbi sığortanın tətbiqi və bu kimi digər məqsədlərin reallaşdırılması nəzərdə tutulmuşdur.

Səhiyyənin maliyyələşdirilməsi mexanizminin gücləndirilməsi və inkişaf etdirilməsi istiqamətində İcbari tibbi sığortanın tətbiqi aşağıdakı prioritetlərin əhatə olunmasını təmin edir :

- ***Əlavə gəlir mənbəyinin formalaşdırılması və səhiyyə sistemi üçün yeni ehtiyatların səfərbər olunması ;***
- ***Mövcud səhiyyə resurslarından daha səmərəli istifadə olunması ;***
- ***Səhiyyə siyasətinin daha yaxşı planlaşdırılması və səhiyyə fondlarından daha səmərəli istifadə olunması üçün vahid mərkəzin formalaşdırılması;***
- ***Xərclərin əlverişli şəkildə bölüşdürülməsi;***
- ***Tibbi xidmətlər üzrə keyfiyyət göstəricilərinin artırılması və bütün vətəndaşların zəruri tibbi xidmətlərlə pulsuz təmin olunması;***
- ***Əhalinin sağlamlığın yaxşılaşdırılması və sistemin şəffaflığının yüksəldilməsi.***

İcbari tibbi sığorta vəsaitlərinin mənbəyi kimi isə Azərbaycan Respublikasının dövlət büdcəsi, icbari tibbi sığorta haqları və qanunvericiliklə müəyyənləşdirilmiş digər daxilolmalar qeyd olunmalıdır.

İcbari Tibbi Sığorta Agentliyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 27 Dekabr tarixli Sərəncamhına əsasən "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Əsasnaməsi" 2016-ci il 15 Fevral tarixli Fərman ilə təsdiqlənmiş və Agentlik fəaliyyətə başlamışdır. 2017-ci il 6 Sentyabr tarixli Fərman ilə isə Agentliyin Nizamnaməsi qəbul olunmuş və Agentlik publik hüquqi şəxs kimi qeydiyyata alınmışdır.

> *Agentlik Nizamnamədə təyin olunmuş məqsədlər üzrə icbari tibbi sığortanın tətbiq olunması, əhalinin bütün qruplarının tibbi sığortaya cəlb olunması, sığortaolunanların hüquqlarının müdafiəsi, baza (əsas xidmətlər) zərfi dairəsində tibbi xidmətlərin maliyyələşdirilməsi üçün vəsaitlərin cəmləşdirilməsi, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi və vətəndaşlar üçün əlçatanlığının təmin olunması, səhiyyə xidmətlərinin alıcısı və xərclərin ödənilməsi funksiyalarının icra olunmasını təmin edir.*

Agentliyin qeyd olunmuş prioritetləri üzrə isə əsas vəzifələri bunlardır:

- ***Səhiyyə sahəsi üzrə dövlət proqramlarının, strategiyalarının və inkişaf konsepsiyalarının hazırlanmasında iştirak edilməsi;***
- ***Tibbi Sığorta Haqqında Qanuna uyğun şəkildə icbari tibbi sığorta haqqının məbləğinin müəyyən olunmasına dair təkliflərin verilməsi;***
- ***Agentliyin vəsaitlərinin yığılması, təyinatı üzrə əlverişli istifadəsinin təmin olunması, icbari tibbi sığorta sahəsində maliyyə sabitliyinin gücləndirilməsi məqsədi ilə sığorta ehtiyatı fondlarının formalaşdırılması;***
- ***Baza (əsas xidmətlər) zərfi çərçivəsində yüksək tibbi xidmətlərin göstərilməsi və bu kimi tibbi xidmətlər üzrə sığorta ödənişlərinin təyin olunmuş şəkildə və müddətdə tibb müəssisələrinə ödənilməsinin təmin olunması;***
- ***İcbari tibbi sığorta sahəsində vahid elektron informasiya sistemi və elektron məlumat bazasının yaradılması və həmin elektron informasiya sistemindən istifadə imkanlarının təchiz olunması və Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə baxılması.***

Beləliklə, İcbari Tibbi Sığorta Agentliyi səhiyyə sahəsinə ayrılan vəsaitlərin səmərəli istifadəsi ilə əhalinin tibbi ehtiyaclarına, səciyyəvi xəstəlik xüsusiyyətlərinə, yaşayış regionları və bu kimi amillərə əsasən onlara göstərilən tibbi xidmətlərin təkmilləşdirilməsi, eləcə də, səhiyyə sisteminin müasir standartlara uyğunlaşdırılması üzrə tədbirlərin artırılmasını və bu kimi digər prinsipləri reallaşdırır və səhiyyə sahəsində qarşıya qoyulan məqsədlərə nail olunmasında olduqca əhəmiyyətli bir qurum olaraq fəaliyyət göstərir.

## 2.3. ƏMƏK PENSİYALARI

Sosial yardım ölkə qanunvericiliyi və sosial siyasətindən asılı olaraq ölkələr üzrə fərqli şəkildə təsnif oluna bilər. Sosial pensiya sosial müdafiənin ən geniş yayılmış və ən səmərəli vasitələrindən biridir. Sosial müdafiə prinsipləri çərçivəsində Azərbaycan Respublikası Prezidenti tərəfindən əmək pensiyaları ilə bağlı fərman və sərəncamlar qəbul olunmuşdur.

Bu fərman və sərəncamlarda isə, bütün növ əmək pensiyalarının sığorta hissəsinin artırılmasının və fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində toplanmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsinin təmin olunması kimi funksiyalar müəyyənləşdirilmişdir. Həmçinin, əmək pensiyalarına qulluq stajına görə əlavənin hesablanması və bu sahədə normativ hüquqi aktlara bir sıra dəyişikliklər qeyd olunmuşdur.

## 2.4. ƏMƏK BAZARININ TƏKMİLLƏŞDİRİLMƏSİ

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 9 Oktyabr 2017-ci il tarixli "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planın "ın təsdiq edilməsi haqqında Sərəncamında bir sıra məsələlər qeyd olunub. Belə ki, əməyin ödənişi sisteminin inkişaf etdirilməsi, nəzarət mexanizminin gücləndirilməsi, işəgötürən-işçi münasibətlərinin rəsmiləşdirilməsi və bu prinsiplər üzrə dövlət qurumları arasında səmərəli və effektiv iş birliyinin formalaşdırılması kimi amilləri nəzərdə tutan Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 mart tarixli 2760 nömrəli Sərəncamına uyğun şəkildə bir neçə amil nəzərdə tutulmuşdu. Qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tərbirlər Planının təsdiq olunması, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının bu planın icrası, görülən tədbirlərin əlaqələndirilməsi və əldə olunan nəticələr barədə Azərbaycan Respublikası Prezidentinə məlumat verilməsi kimi funksiyaların həyata keçirilməsi təyin olunmuşdur.

## 2.5. STRATEJİ YOL XƏRİTƏSİ

Eləcə də qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Prezidentinin 2016-ci il 6 Dekabr tarixli Fərmanı ilə Milli İqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi təsdiq olunmuşdur ki, bu yolla da sosial müdafiənin təmin olunması məqsədilə bir sıra əhəmiyyətli tədbirlərin həyata keçirilməsi planlaşdırılır. Azərbaycan Respublikasında "Peşə təhsili və təlimin inkişafına dair" Strateji Yol Xəritəsində Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin fəaliyyət istiqamətləri üzrə əsas icraçı olduğu prioritet Əmək bazarında strateji məşğulluq sahələrinin müəyyən edilməsi və kadr tələbatının proqnozlaşdırılmasıdır. Bu üzrə aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət işçi qrup yaradılmış və həmin işçi qrupun 2017, 2018-ci illər üçün Tədbirlər Planı hazırlanmışdır.

Əlavə olaraq, keyfiyyətli və rəqabətədavamlı, əmək bazarında mövcud tələb və təklifə əsaslanan, yerli əmək ehtiyyatlarından səmərəli şəkildə istifadə olunmasını təmin edən məşğulluq siyasətinin formalaşdırılması məqsədi ilə beynəlxalq qurumlarla qarşılıqlı müzakirələr aparılmışdır. Həmçinin, Avropa İttifaqının dəstəyi ilə, Nazirlik işəgötürən təşkilatlarla təhsil müəssisələri arasında əlverişli əməkdaşlıq sisteminin formalaşdırılması və beləliklə də, əmək

bazarında zəruri bacarıqların təyin edilməsi istiqamətində Avropa Təhsil Fondu tərəfindən formalaşdırılan "Turin Prosesi"-ndə iştirak edir və Avropa Təlim Fondunun ekspertləri tərəfindən, təqdimat və müzakirələrin təşkilini həyata keçirir.

Eləcə də, strateji məşğulluq sahələrinin müəyyənləşdirilməsi, kadr tələbatının proqnozlaşdırılması məqsədi ilə, Əmək bazarının proqnozlaşdırılması və monitorinqi üzrə Milli Observatoriyanın formalaşdırılmasının zəruriliyi müəyyənləşdirilmiş və artıq bu istiqamətdə Avropa Təlim Fondu ilə lazimi danışıqlar keçirilmiş və layihənin icrası üçün tədbirlər planı hazırlanmışdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əmək ehtiyatları balansı üzrə məlumatların toplanması, işlənməsi, təhlili, respublika üzrə məlumatların icmalaşdırılması, əmək bazarının vəziyyəti, işçi qüvvəsinin ərazi üzrə bölgüsü kimi prinsiplər istiqamətində sistemləşdirilmiş hesabat və statistikanın formalaşdırılması üçün avtomatlaşdırılmış kompleks məlumatlar sisteminin yaradılması ilə bağlı tədbirlərin layihəsi hazırlanmışdır.

Digər tərəfdən "Kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair" Strateji Yol Xəritəsində isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə müəyyən edilən 2017-ci il üçün təyin olunmuş prioritetlər isə kəndin sosial-ictimai həyatında qadınların və uşaqların fəal iştirakının təmin olunması, kənd yerlərində ailə, qadın və gənclər siyasətinin dəstəklənməsi üzrə və bu kimi bir neçə müvafiq tədbirlərin reallaşdırılmasını nəzərdə tutmuşdur.

"Kommunal Xidmətlərinin (elektrik enerjisi, su və qaz) inkişafına dair" Strateji Yol Xəritəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə müəyyənləşdirilən funksiyalar kimi kadr potensialının gücləndirilməsi məqsədi ilə bir sıra tədbirlərin planlaşdırılmasını qeyd etmək olar.

Beləliklə, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən struktur iqtisadi islahatların nəticəsi olaraq Azərbaycan Respublikasında bütün əhali qrupları üzrə sosial müdafiə sistemi təkmilləşdirilir, əmək bazarının davamlı və daha səmərəli inkişafı mexanizmi təmin olunur. Bu yöndə əldə olunan bir neçə əhəmiyyətli nəticələr arasında İşsizlikdən Sığorta Fondunun yaradılması, Əmək pensiyası üzrə keçirilən son islahatlar və eləcə də passiv əmək bazarından aktiv əmək bazarına keçidi təmin edən vacib addımların atılmasını qeyd etmək olar. Yalnızca 2017-ci il ərzində keçirilən iqtisadi islahatlar nəticəsində əldə olunan uğurlar və planlaşdırılan tədbirlər Beynəlxalq Valyuta Fondu tərəfindən də yüksək səviyyədə dəyərləndirilmişdir.

# 3. İNSTİTUTSİONAL İSLAHATLAR

## 3.1. ENERGETİKA MƏSƏLƏLƏRİNİN TƏNZİMLƏMƏ AGENTLİYİ

Azərbaycan Respublikası Prezidenti tərəfindən institusional islahatların həyata keçirilməsi istiqamətində, Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji məsələlərinin Tənzimləmə Agentliyinin yaradılması haqqında 2017-ci il 22 Dekabr tarixli Fərmanı imzalanmışdır. Fərmanda Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 1138 nömrəli Fərmanında qeyd olunan kommunal xidmətlərinin mütəmadi və səmərəli inkişafının təmin olunması, enerji təchizatının şəffaf, çevik və sahibkarlar üçün daha əlçatan olması, rəqabət qabiliyyətli bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılması prinsipləri əsas götürülmüşdür.

**3.1.1 Azərbaycan Respublikası Kommunal xidmətlər (elektrik, istilik enerjisi, su və qaz) sektorunun inkişafı**

Strateji hədəflərə nail olmaq və davamlı inkişafın təmin olunması məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən aparılan kompleks iqtisadi islahatlar dairəsində həyata keçirilən tədbirlər qeyri-neft sektorunun Ümumi Daxili Məhsulda xüsusi çəkisinin nəzərə çarpacaq dərəcədə artmasına əlverişli şərait yaratmışdır. Bu istiqamətdə həyata keçirilən tədbirlərdən biri də "Kommunal xidmətlərin (elektrik, istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi"nin hazırlanması olmuşdur.

Strateji Yol xəritəsində qarşıya qoyulan əsas məqsədlər, tam şaxələndirilmiş və davamlı, ekoloji cəhətdən təmiz, yüksək infrastrukturlu enerji təchizatının və səmərəli enerji istehlakının təmin edilməsidir. Həmçinin, beynəlxalq göstəricilər və təcrübələrdən yararlanaraq əlverişlilik və yüksək keyfiyyət standartlarının müəyyənləşdirilməsi də qeyd olunmalıdır. Məlumdur ki, kommunal xidmətlər sektoru iqtisadi inkişafın və sosial rifahın əsas amillərindən biridir. Bu kimi məqsədlər əsas götürülərək reallaşdırılan tədbirlər nəticəsində **kommunal xidmət sektorunda əsaslı dəyişikliklər əldə olunmuşdur.**

*müasir istilik təchizatı sisteminin qurulması,*

*səmərəli olmayan yararsız istilik təchizatı qurğularının yeniləri ilə əvəz olunması,*

*regionların təbii qazla təminatı sisteminin yaxşılaşdırılması aid edilir.*

Qeyd etmək lazımdir ki, elektrik enerjisi təchizatı Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 8 iyun tarixli 847 saylı Sərancamına əsasən yaradılmış "Azərenerji" ASC-nin tabeliyində fəaliyyət göstərən elektrik stansiyaları hesabına təmin olunur. Eləcə də, son illər artan investisiya qoyuluşları mövcud təbii resurslardan səmərəli istifadə olunması məqsədi ilə su, külək, günəş və məişət tulantılarından yararlanmaqla bir sıra kiçik elektrik stansiyaların yaradılmasına və onların fəaliyyətinin inkişafına yol açmışdır.

Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanları ilə regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində su və kanalizasiya xidmətlərində, eləcə də qaz təsərrüfatında struktur islahatlarının əsası qoyulmuşdur. Zəruri hallarda yenidən qurulma və ya təkmilləşdirilmə üzrə tədbirlərin həyata keçirilməsi müəyyən olunmuş və tətbiq edilmişdir. Bu tədbirlər nəticəsində fasiləsiz içməli su ilə təmin olunan əhalinin sayında, eləcədə təbii qazdan istifadə edən abunəçilərin, region və məntəqələrin sayında xeyli artım müşahidə olunmuşdur.

Strateji yol xəritəsində nəzərdə tutulan strateji hədəflərə nail olmaq, mövcud inkişaf tempinin daha da sürətləndirilməsi və səmərəli hal alması istiqamətində atılan addımlardan biri də Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji məsələlərini Tənzimləmə Agentliyinin yaradılması üçün 2017-ci il 22 dekabr tarixli fərmanının verilməsi olmuşdur.

### 3.1.2 Azərbaycan Respublikası Energetika Məsələlərini Tənzimləmə Agentliyinin fəaliyyəti

Həyata keçirilən iqtisadi islahatlarda kommunal xidmətlər sektorunun da davamlı və effektiv inkişaf dinamikasının təmin olunması əsas prioritetlərdən biri kimi qəbul olunmuşdur. Bu istiqamətdə yaradılan Enerji Məsələlərinin Tənzimləmə Agentliyinin əsas fəaliyyət istiqamətləri kimi aşağıdakılar qeyd oluna bilər:

- *Vahid dövlət siyasətinin formalaşdırılması və tətbiq edilməsi;*
- *Müvafiq sahədə mövcud qanunvericiliyin, həmçinin istehlakçıların hüquqlarının müdafiəsi üzrə müəyyən olunmuş qanunvericilik normalarının həyata keçirilməsinə nəzarətin təmin olunması;*
- *Mövcud təbii resursların səmərəli istifadəsi, eləcədə həmin təbii resurslardan istifadə zamanı ətraf mühitə dəyən zərərin mümkün dərəcədə qarşısının alınması və ya azaldılması məqsədilə uyğun normaların tətbiqinə nəzarət edilməsi;*
- *Sözügedən sahədə sağlam rəqabət mühitinin yaradılması,*

*enerji istehsalının effektiv şəkildə artırılması, vahid qiymət siyasətinin formalaşdırılması ilə əlaqədar uyğun təkliflərin verilməsi və investisiyaların cəlb olunması;*

- *Bu sahənin əsas iştirakçıları olan istehsalçılar, istehlakçılar, təchizatçılar, ötürücülər və paylayıcılar arasında yarana biləcək mübahisələrin həllinə baxılması;*
- *"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Qanunda müəyyən olunmuş hallarda və qaydalarda sözügedən sahə üzrə yoxlamaların aparılması.*
- *Nəzərdə tutulan fəaliyyət istiqamətləri üzrə səmərəliyin artırılması, qarşıya çıxa biləcək risklərin idarə edilməsi, effektivliyin və çevik inkişafın təmin olunması məqsədilə müəyyən olunan əsas vəzifə və prinsiplər kimi isə bunlar nəzərdə tutulmuşdur:*
- *Enerji mənbələrinin qiymətləri ilə bağlı mövcud təkliflərin təhlil olunması və həmin qiymətlərin dövlət tənzimlənməsinə uyğun olan təkliflərinin təqdim olunması;*
- *İstehlakçılara səmərəli və effektiv xidmətin göstərilməsi prinsipi əsasında istehlakçıların hüquqlarının müdafiə olunması, potensial hüquq pozuntularının qarşısının alınması, bu pozuntuları törədən şəxslərin məsuliyyətə cəlb olunması;*
- *Müvafiq sahədə investisiya yatırımlarının artırılması, istehsalın diversifikasiyasının təmin edilməsi, sağlam rəqabət mühitinin formalaşdırılması üzrə fəaliyyətin gücləndirilməsi;*
- *Enerji təhlükəsizliyinin təmin olunması, enerji resurslarının istehlak limitlərinin tərtibi və tətbiqi üzrə mövcud qanunvericilik və təlimatlara əməl olunmasına nəzarət olunması.*

Agentlik Energetika Nazirliyinin Dövlət Enerji Nəzarəti İdarəsi, Dövlət Qaz Nəzarəti İdarəsi və bu qurumların yerli bölmələrinin əsasında publik hüquqi şəxs statusu ilə yaradılmışdır. Enerji Məsələlərini Tənzimləmə Agentliyinin yaradılması Strateji Yol Xəritəsində də qeyd olunan bir sıra strateji hədəflərə nail olunmasına müsbət töhfə verəcəkdir.

Energetika Məsələlərinin Tənzimləmə Agentliyinin tərkib hissəsi olduğu, **"Kommunal xidmətlərin (elektrik, istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulan prioritetlərin həyata keçirilməsi nəticəsində ÜDM-də 832 mln. manat artım, eləcə də 6645 min iş yerinin yaradılması üçün əlverişli şərait yaradılması** proqnozlaşdırılır.

Kommunal xidmətlər sektorunda fəaliyyətin səmərəliyinin artırılması, tarif standartlarının və mövcud standartların təkmilləşdirilməsi, təbii resurslardan daha səmərəli və effektiv şəkildə istifadə olunması, xarici bazarlara inteqrasiya olunması və bu yolla da müasir texnologiyaların tətbiqinin inkişaf etdirilməsi, istehlakçı maraqlarının müdafiə olunması və bu sektorun davamlı inkişafının təmin olunması, enerji resurslarından istifadə zamanı itkilərin minimuma endirilməsi, milli istehsal portfelinin ehtiyat portfelinin yaradılması və şaxələndirilməsi məqsədilə investisiyaların cəlb olunması üçün stimullaşdırıcı mexanizmlərin təmin olunmasına yol açılacaqdır.

# NƏTİCƏ

Beləliklə, yalnızca 2017-ci ildə həyata keçirilən iqtisadi islahatlar, iqtisadiyyatın bir çox sahəsini əhatə edərək olduqca mühüm nailiyyətlərin əldə olunmasına yol açmışdır. Məlumdur ki, cənab Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, 2017-ci il iqtisadi cəhətdən bir çox çətinliklər ilə xarakterizə olunsa da, Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliyinə görə dünya miqyaslı sıralamalarda ön sıralara gəlib çatmış, eləcə də regionda və MDB ölkələri arasında da iqtisadi inkişaf gücünə görə öz liderliyini qoruyub saxlamışdır. Həyata keçirilən tədbirlər bir-biri ilə əlaqəli şəkildə, iqtisadi uğurlara nail olunmasına şərait yaratmış və bu nailiyyətlərin beynəlxalq iqtisadi, maliyyə qurumları tərəfindən də yüksək dəyərləndirilməsini təmin etmişdir. Belə ki, iqtisadi islahatlar ölkə iqtisadiyyatının inkişafı, ÜDM-in artımı, qeyri-neft sektorunda müxtəlif sahələr üzrə ixrac payının inkişafı, mövcud çətin maliyyə və iqtisadi vəziyyətində ölkə iqtisadiyyatına qoyulan investisiyalarda yüksəlişi, ixrac potensialının gücləndirilməsi, sosial infrastrukturun təkmilləşdirilməsi, eləcə də enerji təchizatının yaxşılaşdırılması və bu kimi digər əhəmiyyətli uğurlar ilə nəticələnmişdir. 2017-ci il ərzində həyata keçirilən geniş əhatəli təşviqedici, sosial və institutsional islahatlar Strateji Yol Xəritəsində də təyin olunmuş missiyalar üzrə bir sıra prioritetlər çərçivəsində qarşıya qoyulan məqsədlərə nail olunmasında aparıcı rola malikdir.

/iqtisadiislahat

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az



Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073

Tel.: (+ 994) 12 521 33 18
info@ereforms.org